# Qarabağ Universiteti regionda təhsil mühitini canlandıracaq




**Tarixi ədalət bərpa olunur. Soydaşlarımız otuz il əvvəl təcavüzkar, qəsbkar ermənilərin hücumlarına məruz qalaraq ağlaya-ağlaya tərk etdikləri yurdlarına indi gülə-gülə dönürlər. Azərbaycan dövləti öz vətəndaşlarının dədə-baba yurdlarına qayıtmaları üçün Qarabağ və Şərqi Zəngəzurda geniş və sürətli tikinti, quruculuq işləri reallaşdırır. İşğaldan azad etdiyimiz ərazilərimizdə həyat canlanır.**

Böyük qayıdış layihəsi çərçivəsində həyata keçirilən işlər nəticəsində yurduna dönmüş keçmiş məcburi köçkünlər yeni evlərində könül rahatlığı ilə yaşayır, ocaqlarını daha gur yandırırlar. Yır-yığış edib yurduna dönəcəyi günü gözləyənlərin də ən böyük arzularının gerçəkləşməsinə çox qalmayıb.

Tarix unudulmayacaq. Ancaq yaralar sarınır, işğalçı Ermənistanın xarabalığa çevirdiyi Qarabağ və Şərqi Zəngəzur dirçəlir. Həyatın yenidən axarına düşdüyü yurdlarımızda fəaliyyətə başlamış orta məktəblərdə çalınan zəng səsləri uşaqları öz qoynuna səsləyir. Bu günün şagirdləri olan həmin uşaqların bəziləri ali təhsil almaq üçün çox da uzağa getməyəcək, Xankəndidə, Qarabağ Universitetində oxuyacaqlar...

Prezident İlham Əliyevin 2023-cü il noyabrın 28-də imzaladığı "Qarabağ Universitetinin yaradılması haqqında" sərəncamda qeyd olunurdu ki, əhalinin dayanıqlı məskunlaşması və ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası istiqamətində müəyyənləşdirilmiş hədəflərin reallaşdırılmasında nəzərdə tutulan müasir yanaşmalar, o cümlədən qabaqcıl standartların, yüksək texnologiyaların tətbiqi və hər bir rayonun ixtisaslaşma sahəsinə müvafiq inkişafı yüksəkixtisaslı kadrların cəlb edilməsini şərtləndirir. Sərəncamda universitetin nizamnaməsinin təsdiq edilməsi, maliyyələşməsi ilə bağlı müvafiq tapşırıqlar verilib. Xatırladaq ki, bu il fevralın 6-da Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə Qarabağ Universitetinin Nizamnaməsi təsdiq edilib.

Fevralın 15-də Prezident İlham Əliyev Qarabağ Universitetinin fəaliyyətinin təşkili üçün maliyyə vəsaiti ayrılması haqqında sərəncam imzaladı. Sərəncamda bildirilir: "Qarabağ Universitetinin fəaliyyətinin təşkilinə maliyyə dəstəyi göstərilməsi üçün Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə 10,0 (on) milyon manat ayrılsın".

Qarabağ Universiteti fəaliyyəti ilə bu bölgədə mövcud olmuş ali təhsil ənənəsini davam etdirəcək. Diqqətə çatdıraq ki, Qarabağda ilk ali təhsil müəssisəsi 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi qurulub. 1973-cü ildən 1988-ci ilədək ali təhsil müəssisəsi kimi fəaliyyət göstərib. Ermənistan ordusu və separatçı qüvvələr tərəfindən Qarabağın işğal olunması ilə bu ali təhsil müəssisəsinin də fəaliyyətinə zərbə vuruldu. Ancaq Prezident İlham Əliyevin ötən ilin dekabrında keçirilən Azərbaycan müəllimlərinin XVI qurultayının iştirakçılarına təbrik məktubunda qeyd etdiyi kimi, Vətən müharibəsindəki parlaq qələbəmizdən dərhal sonra azad olunmuş ərazilərimizdə ən müasir standartlarla tikilən məktəblər artıq fəaliyyətdədir: "Bu məktəblərdə gələcəyimizin layiqli vətəndaşları oxuyurlar. Yeni yaradılan Qarabağ Universiteti isə, şübhəsiz, regionda tarixən mövcud olmuş təhsil mühitini çox yaxın vaxtda canlandıracaqdır".

2023-cü ilin sentyabrında Azərbaycan Ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan azad edilmiş Xankəndi şəhərində fəaliyyət göstərəcək Qarabağ Universitetində dərslərin 2024-cü ilin 15 sentyabr tarixindən başlanması nəzərdə tutulur.

Elm və təhsil nazirinin müavini İdris İsayev jurnalistlərə açıqlamasında bildirmişdi ki, Qarabağ Universitetində yüksəkixtisaslı - ali təhsilin bütün səviyyələri üzrə kadr hazırlığı, əlavə olaraq orta ixtisas təhsili üzrə kadr hazırlığı həyata keçiriləcək: "Həmçinin əlavə təhsil proqramları üzrə tədris universitetdə təşkil olunacaq. Bütün bu fəaliyyətlər mərhələli qaydada həyata keçiriləcək. İlkin mərhələdə universitetdə bakalavr səviyyəsi üzrə tədrisə başlanılması nəzərdə tutulur". Nazir müavini 2024-2025-ci tədris ilində universitetdə 1000-ə yaxın tələbənin təhsil almasının nəzərdə tutulduğunu bildirib. "Tələbələrin sayı növbəti illərdə 10 mindən çox olacaq. 2024-2025-ci tədris ilindən ali təhsil müəssisələrinə qəbul planı hazırlanır və Qarabağ Universitetinə müxtəlif ixtisaslar üzrə tələbə qəbulu nəzərdə tutulur. Bakalavr səviyyəsində 5 istiqamətdə 20 ixtisas üzrə tədris aparılacaq. Pedaqoji, iqtisadiyyat, mühəndislik, humanitar və sosial elmlərə aid, incəsənət, turizm sahələri üzrə ixtisaslar tədris olunacaq. Növbəti mərhələdə bu ixtisasların sayı artırılacaq. Universitetdə 10 istiqamət üzrə ixtisasların olması nəzərdə tutulur".

Nazir müavini universitetdə ilkin mərhələdə 70 nəfərin işlə təmin olunmasının gözlənildiyini, onların böyük hissəsinin akademik şəxslər olacağını qeyd edib. Bildirib ki, dünyanın nüfuzlu ali təhsil müəssisələrində doktorantura təhsili alan tələbələrin də universitetdə akademik fəaliyyətə cəlb olunması nəzərdə tutulur.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 20 fevral, № 38.- S.14.